**İki sahil.**-2024.-22 iyun.-№109.-S.6.

**Muxtariyyətin və müstəqilliyin ali təntənəsi**

**İradə Quliyeva,**
Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı, I dərəcəli ədliyyə qulluqçusu

Tarixdən məlumdur ki, Naxçıvan ərazi, bir coğrafiya olaraq, təkcə zəngin mədəni dəyərlərin yox, eyni zamanda, böyük dövlətçilik ənənələrinin də mövcud olduğu diyardır. On ikinci əsrdə Atabəylər dövlətinin paytaxtı olmuş, daha sonralar, yəni 18-ci əsrdə yaranmış xanlıqlardan biri olan Naxçıvan xanlığı bölgənin inkişafına, müdafiə qabiliyyətinin gücləndirilməsinə, inzibati idarəçiliyin formalaşmasına özünəməxsus töhfələr vermişdir.

Beynəlxalq təcrübədə muxtariyyətlərin müxtəlif formalarına təsadüf edilir. Muxtar qurumlar bir qayda olaraq yaranma əsaslarına görə milli-ərazi və inzibati-ərazi əlamətlərinə ayrılır. Naxçıvan muxtariyyəti dövlətin əsas ərazilərindən tam təcrid olunmuş vəziyyətdə - "anklav" ərazi kimi geosiyasi əsasa görə yaranmışdır. Belə coğrafi-siyasi əlamət tarixi zərurət kimi Naxçıvana muxtar hüquqların verilməsini şərtləndirmiş və qismən özünüidarə hüququnun tanınmasına yol açmışdır. Naxçıvan Muxtar Respublikası milli mənsubiyyətə görə yox, yəni milli-etnik cəhətdən deyil, həmin illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında yaranmışdır. Belə ki, 1920-ci ildə Rusiya və Ermənistan arasında bağlanmış sazişə görə, tarixi Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan Azərbaycanın digər ərazilərindən təcrid olunmuş və bu da onun muxtariyyət məsələsini zəruri etmişdir.

Dünyada azsaylı muxtariyyətlər vardır ki, onlar beynəlxalq müqavilələr əsasında yaradılıb.Qeyd olunmalıdır ki, qədim və zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarının muxtariyyət statusunun əsası da 1921-ci il Moskva və Qars müqavilələri ilə qoyulmuş və sözügedən müqavilələrlə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğu, onun heç bir zaman digər ölkəyə verilməyəcəyi təsdiq edilərək ərazi hüdudları dəqiqləşdirilmişdir. Lakin qeyd olunmalıdır ki, Moskva və Qars müqavilələri ilə Naxçıvana muxtariyyət statusu verilsə də, onun Azərbaycan SSR-in tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü il 9 fevral tarixli dekreti ilə müəyyən edilmişdir. Belə ki, Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq olunmuş, bununla da bu diyarın statusu müəyyənləşdirilmişdir. Beləliklə, Naxçıvan 1921-ci il martın 16-dan Naxçıvan SSR, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan Diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. Burada bir məsələ də qeyd olunmalıdır ki, Naxçıvan 1921-ci ildən Azərbaycanın muxtar qurumu kimi idarə olunsa da, 30-cu illərin ortalarına qədər bütün rəsmi sənədlərdə Naxçıvan SSR yazılmışdır.

Bu illər ərzində qəbul olunmuş konstitusiyaların (1926,1937,1978 və 1998-ci illər konstitusiyaları) hər biri Naxçıvanın muxtariyyət statusuna aid normaları da özündə ehtiva etmişdir ki, bu da muxtar ərazi statusunun möhkəmləndirilməsində xüsusi əhəmiyyət daşımışdır.

Hər şeydən əvvəl qeyd edək ki, Naxçıvanın Konstitusiyasının işlənib hazırlanması onun muxtar respublika kimi formalaşması zərurətindən qaynaqlanmışdır. Bu baxımdan Naxçıvan MSSR-in ilk Konstitusiyası 1926-cı il qəbul edilmişdir. 4 bölmədən və 62 maddədən ibarət olan bu Konstitusiyaya görə, Naxçıvan MSSR ərazisində ali hakimiyyət orqanı Naxçıvan Sovetlər Qurultayı idi. Qurultaylararası müddətdə onun səlahiyyətlərini Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi həyata keçirirdi. Lakin Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi (MİK) Naxçıvan Sovetlər Qurultayından fərqli olaraq ali qanunverici, sərəncamverici və nəzarətedici orqan idi.

Naxçıvan Sovetlər Qurultayının və MİK-in səlahiyyətinə Naxçıvan MSSR Konstitusiyasına dəyişikliklər və əlavələr etmək, muxtar respublikanın ərazisinin ümumi inzibati bölgüsünü aparmaq, büdcəyə baxmaq və onu qəbul etmək, Xalq Komissarları Soveti heyətini və ya ayrı-ayrı hökumət üzvlərini təyin və azad etmək məsələləri daxil idi. Bundan əlavə, Konstitusiyada Naxçıvan MSSR-də Azərbaycan SSR-in gerb və bayrağından istifadə edilməsi, həmçinin paytaxtın isə Naxçıvan şəhəri olması təsbit edilmişdir.

1936-cı ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olundu və bütün müttəfiq və muxtar respublikalar öz konstitusiyalarını ona uyğunlaşdırmaq məcburiyyətində qaldılar. X Fövqəladə Ümumnaxçıvan Sovetlər Qurultayı 18 sentyabr 1937-ci ildə Naxçıvan MSSR-in ikinci Konstitusiyasını qəbul etdi. 7 aprel 1941-ci il tarixli qanunla Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edilən bu Konstitusiya Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası əsasında hazırlanaraq onun əsas prinsiplərini özündə əks etdirməklə, 11 fəsil və 115 maddədən ibarət idi. Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasında Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibinə muxtariyyət hüquqlarında daxil olan sosialist dövləti elan edilmişdir.

Azərbaycan SSR növbəti Konstitusiyası 1978-ci ildə, 1977-ci il SSRİ Konstitusiyası əsasında qəbul edildi. Bu Konstitusiyanın hazırlanması və qəbulu o zaman Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin iştirakı ilə həyata keçirilmişdir. İlk dəfə olaraq ölkəmizin Konstitusiya tarixində “xalq hakimiyyəti”

və "demokratiya" terminləri məhz bu Konstitusiyada qəbul olunmuşdur. Burada deyilirdi ki, Azərbaycan SSR-də bütün hakimiyyət xalqa məxsusdur. O da qeyd edilməlidir ki, 1978-ci ildə qəbul edilən yeni Konstitusiyada dil məsələsi əsas prinsiplərdən olmuşdur. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ulu Öndərin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri idi və bununla da Ümummilli Lider gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuş oldu.

Beləliklə, 1977-ci ildə qəbul edilən SSRİ Konstitusiyası muxtar respublika konstitusiyalarını təsdiq etmək hüququnu yenidən Naxçıvanın özünə verdi. 30 may 1978-ci ildə Naxçıvan MSSR-in üçüncü Konstitusiyası qəbul edildi. 10 bölmə, 16 fəsil, 163 maddədən ibarət olan bu Konstitusiyanın hüquqi əsasını SSRİ Konstitusiyasının 18-ci və Azərbaycan SSR Konstitusiyasının 8-ci fəsilləri təşkil edirdi. Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının səlahiyyətlərinə Konstitusiyanı qəbul etmək və onda dəyişikliklər aparmaq, Konstitusiyaya əməl olunmasına nəzarət etmək, Naxçıvan MSSR qanunvericiliyini, dövlət asayişini, vətəndaşların hüquq və azadlıqlarını qorumaq, sosial-iqtisadi, xalq maarifi, mədəniyyət, səhiyyə və sair sahələrin inkişafını təmin etmək, respublika əhəmiyyətli digər məsələləri həll etmək daxil idi.

1978-ci il Naxçıvan MSSR Konstitusiyasına görə, Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanı 5 il müddətinə seçilən 110 nəfərlik deputat korpusu ilə təmsil olunan Naxçıvan MSSR Ali Soveti idi. Qanunlar Naxçıvan Ali Soveti tərəfindən qəbul edilirdi və bütün muxtar respublika ərazisində məcburi hüquqi qüvvəyə malik idi.

Naxçıvan MSSR-in ali icraedici və sərəncamverici orqanı Naxçıvan MSSR Nazirlər Soveti olub, muxtar respublikanın səlahiyyətinə aid edilən bütün idarəetmə məsələlərini həyata keçirməklə yanaşı, Naxçıvan MSSR Ali Soveti qarşısında məsul idi və ona hesabat verirdi.

Tarixi proseslər, o cümlədən 80-ci illərin sonlarında başlayaraq respublikada mürəkkəbləşən siyasi vəziyyət Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxmasına gətirib çıxardı. Bu çətin dövrdə Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlməsi, Azərbaycan və Naxçıvan parlamentlərinə deputat və sonrakı mərhələdə Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri seçilməsi və fəaliyyəti bu qədim diyarı xilas etdi. Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır. O günlərdə üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Ali Məclisində qaldırılması, muxtar respublikanın adından "sovet, sosialist" sözlərinin çıxarılması Ulu Öndərin xalqımız qarşısında misilsiz tarixi xidmətləri idi. Sonralar Ümummilli Lider deyirdi: "Mən 3 il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm". Müstəqilliyin ilkin mərhələsində, daha dəqiq desək 1995-ci il noyabrın 12-də referendumla qəbul olunmuş ilk milli Konstitusiya Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən daha da möhkəmləndirdi.

Ümumiyyətlə, Konstitusiya müasir demokratiyanın ən mühüm institutlarından, bəşəriyyətin ən mühüm nailiyyətlərindən biridir. Eyni zamanda, hər bir ölkədə Əsas Qanun kimi ali hüquqi qüvvəyə malikdir. Dövlətin təməl prinsiplərini, siyasi, hüquqi və sosial-iqtisadi əsaslarını təsbit edən bu ali sənəd vətəndaşların hüquq və azadlıqlarına zəmanət verir, ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirir. Nəhayət, Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixli Konstitusiyasının qəbulu Naxçıvan Muxtar Respublikasında yeni Konstitusiyanın qəbulunu yenidən zəruri etdi. Belə ki, həmin Konstitusiyada "Naxçıvan Muxtar Respublikası" başlıqlı VIII fəsil nəzərdə tutulmuş, həmin fəsil daxilindəki 134-cü maddədə muxtar respublikanın Azərbaycan Respublikasının tərkibində muxtar dövlət olması təsbit edilmiş, bütün bunlar isə muxtar respublikanın Əsas Qanununun qəbul edilməsini şərtləndirmişdir. Nəticədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə muxtar respublikada yeni Konstitusiya layihəsi hazırlayan komissiya yaradıldı.Muxtar respublikanın yeni Konstitusiya layihəsi Azərbaycan Respublikası Konstitusiya layihəsini hazırlayan komissiyada 4 dəfə müzakirə olunmuş və 1998-ci il aprelin 28-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilərək həmin il dekabrın 29-da təsdiq edilmişdir. 50 maddədən ibarət olan Konstitusiya demək olar ki, əvvəlkilərdən həm formasına, həm də məzmununa görə əsaslı şəkildə fərqlənir.

Bu il fevralın 9-da tarixi çətin yollardan keçən Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi tamam oldu. Bununla bağlı 2023-cü il 30 dekabr tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzaladı. Sərəncamda Naxçıvanın Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutması, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynaması, əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr verdiyi qeyd olunub.

Bu gün Naxçıvan qalib Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Şərq-Qərb Nəqliyyat Dəhlizində açar rolunu oynayan region kimi diqqət çəkir. Əminik ki, Zəngəzur dəhlizinin açılmasıdan sonra da Naxçıvan Muxtar Respublikası türk dünyasına açılan bir qapı kimi regionun iqtisadi inkişafına və təhlükəsizliyinə öz töhfəsini verəcək.